**RAST MÜZİKOLOJİ DERGİSİ**
**Uluslararası Müzikoloji Dergisi**
**www.rastmd.com**

Doi:10.12975/rastmd.2017.05.03.000119




# AZƏRBAYCAN XALQ RƏQSLƏRİNİN TƏSNİFATI

**Rauf Bəhmənli**[1]

**ÖZET**

Azərbaycan xalq musiqisinin çox geniş yayılmış növlərindən biri də rəqslərdir. Mədəniyyət incilərimizdən sayılan rəqs sənəti qədim dövrlərdən zəmanəmizə kimi yaşayaraq xalqımızın adət-ənənəsini, insanların ictimai həyat tərzini, məişətini, estetik zövqünü özündə əks etdirmişdir. rəqslərin hər birinə onların özünəməxsus musiqi dilinə, intonasiyasına, ritminə uyğun adlar verilmişdir. Bəzi rəqslər öz yarandığı yerin, tarixi ərazinin adını götürmüşdür. Bu sahədə çalışan görkəmli musiqişünaslarımızdan Məmmədsaleh İsmayılovun, Bayram Hüseynlinin, Əhməd İsazadənin və başqalarının elmi əsərlərində, tədqiqat işlərində rəqslərin təsnifatı məsələlərinə də toxunulmuşdur. Aparılan araşdırmada rəqslərin müxtəlif tərtibatda göstərilmiş əvvəlki təsnifatları da nəzərə alınmış, onların oxşar və fərqli cəhətləri müqayisəli şəkildə təhlil edilərək yeni səpgidə təşkil edilmişdir.

**Anahtar Kelimeler:** oyun havaları, müqayisə, təsnifat, təhlil, əsər.

# THE CLASSIFICATION OF AZERBAIJANI FOLK DANCES

**ABSTRACT**

Dancing is one of the most common types of Azerbaijani folk music. Living from ancient times to our days the art of dance, which is considered one of the pearls of culture, has reflected the traditions of our people, their social life, welfare and aesthetic taste. Each of the dances according to their own musical language, intonation and rhythm were given corresponding names. Some dances were named after their place of origin or the historic area. From our outstanding musicologists working in this field Mammadsaleh Ismayilov, Bayram Huseynli, Ahmed Isazade and others, touched upon the question of classification of dances in their thesis and researches. In the study the previous classifications of dances in different arrangements were also taken into account, and by analyzing their similar and different features through comparative analysis, they were organized in a new style.

**Keywords:** dance-music, comparison, classification, analysis, work

# КЛАССИФИКАЦИЯ АЗЕРБАЙДЖАНСКИХ НАРОДНЫХ ТАНЦЕВ

**РЕЗЮМЕ**

Танцы – это одна из широко распространенных видов азербайджанской народной музыки. Искусство танца, которое считается одним из жемчужин культуры, жило с древнейших времен до наших дней, отражая традиции нашего народа, общественную и повседневную жизнь людей, эстетические взгляды. Каждому из танцев были даны имена, соответствующие их музыкальному языку, интонации,

[1] Ü.Hacıbəyov adına BMA-nın doktorantı, habishka83@mail.ru, https://orcid.org/0000-0002-9112-8768

ритма. Некоторые танцы приняла названия своего место происхождения и исторического развития. В научных трудах, исследованиях выдающихся музыковедов, таких как Мамедсалех Исмаилова, Байрам Гусейнли, Ахмеда Изазаде и других, затронуты классификации танцев. В исследовании также были учтены предыдущие классификации танцев в разных аспектах, путем сравнительного анализа были по-новому проанализированы их сходства и различия.

**Ключевые слова**: игровые мелодии, сравнение, классификация, анализ, произведение.

## GİRİŞ

Azərbaycan xalq musiqisi çoxəsrlik tarixə malikdir. Şifahi-ənənəvi sənət kimi öyrənilən folklor musiqimiz əsrlərdən bəri inkişaf etdirilmiş, yeni-yeni çalarlarla zənginləşdirilmiş, istedadlı musiqi ifaçılarımız tərəfindən nəsildən-nəsilə ötürülərək bu günə kimi qorunub saxlanılmışdır. Azərbaycan xalq musiqisinin çox geniş yayılmış növlərindən biri də rəqslərdir. Mədəniyyət incilərimizdən sayılan rəqs sənəti qədim dövrlərdən zəmanəmizə kimi yaşayaraq xalqımızın adət-ənənəsini, insanların ictimai həyat tərzini, məişətini, estetik zövqünü özündə əks etdirmişdir. Tarix boyu Azərbaycan xalqının həyatında rəqs janrı böyük əhəmiyyət kəsb edib. Rəqs etməyi çox sevən xalqımız hər bir xoşbəxt günündə, sevincli anlarında qol qaldırıb oynayıblar. Çünki bu xalqın kökündə, qanında, canında musiqi, ritm olub. Buna bizim “yallı”larımız, “qopuz”umuz, “qavaldaş”ımız tarixi mədəni sübutdur. Qanında musiqi çağlayan xalq qəhrəmanlarımız çətin anlarında belə “Cəngi” sədaları altında düşmənə qalib gəlmişlər. Qərinələr ötdükcə insan təfəkkürünün sürətlə inkişafı, bəşər tarixində baş verən mürəkkəb proseslər insanların dünyagörüşünün zənginləşməsinə, xalqın həyatında müxtəlif dövrlərlə bağlı yeni-yeni ənənələrin yaranmasına gətirib çıxarır. Din uğrunda, hakimiyyət uğrunda əsrlərlə aparılan qanlı müharibələr, mərd igidlərin döyüş meydanlarında göstərdikləri qəhrəmanlıq, feodal dövrünün özünəməxsus qanunauyğunluqları, Azərbaycan ərazisindəki xanlıqlar və saray personajları, at yarışları, pəhləvanların, kəndirbazların müxtəlif tamaşaları, toy mərasimləri və bir çox bayram və el şənlikləri rəqslərimizin yaranmasına çox böyük təsir göstərmiş və onların əsas mövzusuna çevrilmişdir.

Müxtəlif xarakterə, oyun tərzinə, mövzu və məzmuna, aydın musiqiyə və adlarının mənalarına görə Azərbaycan xalq rəqsləri bir neçə qrupa (təsnifata) bölünürlər.

1. Yer və tarixi ərazilərin adları ilə bağlı rəqslər;
2. Bitki və gül-çiçək adları ilə bağlı rəqslər;
3. Daş-qaş, zinət və bəzək əşyalarının adları ilə bağlı rəqslər;
4. Əmək və təsərrüfatla bağlı məişət rəqsləri;
5. Qəhrəmanlıq və igidlik timsallı rəqslər;
6. Bayramlar və el şənlikləri ilə bağlı mərasim rəqsləri;
7. İnsan adları ilə bağlı rəqslər;
8. Məzəli rəqslər.

1. Hər bir rəqs müəyyən bir dövrdə, hansısa bir tarixi ərazidə yaranmışdır.

Bu rəqslərin hər birinə onların özünəməxsus musiqi dilinə, intonasiyasına, ritminə uyğun adlar verilmişdir. Bəzi rəqslər öz yarandığı yerin, tarixi ərazinin adını götürmüşdür. Bu da rəqsin yaradıcılarının vətənə sevgisindən, doğma torpağına, göz açdığı diyarına məhəbbətindən xəbər verir. “Azərbaycan”, “Qazağı”, “Nuxa” (və ya “Şəki”), “Naxçıvanı”, “Şamaxı”, “Bakı”, “Şuşa”, “Əsgəranı”, “Dəhnə”, “Şağani”, “Şərur”, “Sabirabadı” belə rəqslərdəndir. Bu rəqslərin adları bizə çox tanışdır. Çünki bu adlar Azərbaycanda hansısa bir bölgənin, şəhərin, rayon mərkəzinin adıdır. Adları çəkilən oyun havalarından iki ada

malik olan "Şəki" rəqsi əsasən, yallı musiqisidir. Onun ikinci adı "Nuxa"dır. Nuxa Şəkinin əvvəlki adıdır. Bilirik ki, Şəki Azərbaycanın çox qədim tarixə malik olan şəhərlərindən biridir. Onun şərəfinə həsr olunmuş bu rəqs həm kütləvi şəkildə yallı kimi, həm də solo ifada rəqs kimi oynanılır.




**Nota 1: Şəki rəqs havası.**

Lakin elə rəqslər də vardır ki, onların adı hansısa bir tarixi ərazidə yerləşən dərə, təpə, qala, çay, bulaq adları ilə adlandırılmışdır. Məsələn, "Uzundərə", "Kömürtəpə", "Çay dərəsi", "Muğan bulağı" ("Şirvan bulağı" da deyirlər), "Çıraqqala", "Qusar-çay" və başqaları buna aydın nümunədir. Bu rəqslərdən bəzilərinin tarixi orta əsrlərə aid edilir. "Kömürtəpə" adlanan qədim yaşayış yeri Azərbaycanın tarixi abidələri siyahısına daxil olan mühüm ərazilərdəndir. İndiki Şabran rayonu ərazisində, Qəndov kəndinin cənubunda yerləşən Kömürtəpəyə həsr olunan rəqsin musiqisi də bu tarixi ərazinin özü kimi qədim və maraqlıdır.




**Nota 2: Kömürtəpə'ye həsr olunan rəqs.**

Azərbaycanda elə rəqslər də mövcuddur ki, onların adları hal-hazırda qonşu xalqların yaşadığı ərazilərin adı kimidir. Çünki bu ərazilərdə də tarix boyu azərbaycanlılar yaşayıblar, adət-ənənəmizi qoruyub saxlayıblar və musiqi mədəniyyətimizi daim inkişaf etdiriblər. Qeyd etmək lazımdır ki. elə indi də Dağıstan, Gürcüstan, Türkiyə, İran, Özbəkistan və digər dövlətlərdə çoxlu sayda azərbaycanlı yaşayır. Bu tarixi ərazilərin şəninə yazılmış Azərbaycan xalq rəqslərindən "Dilican", "Tiflisi", "Ənzəli", "Aşxabadı", "Məhərrəmkənd", "Qars", "Dağıstan", "Dərbəndi", "Əndican", "Çanaqqala" və başqalarını nümunə gətirə bilərik. Məhərrəmkənd – Dağıstan ərazisində, Samur çayının sahilində yerləşən rayon mərkəzinin adıdır. Bu gözəl məkana həsr edilmiş rəqs Azərbaycanda çox tanınmış rəqslərdəndir. Sonrakı illərdə rəqsin musiqisinə ləzgi dilində

şeir (mətn) əlavə olunaraq "Kanda-kanda" adlanan mahnı kimi də oxunmuşdur. "Məhərrəmkənd" rəqsi "qaytağı" ritmində ifa edilir. Mahnı kimi orta tempdə, rəqs kimi isə tez tempdə səslənən bu oyun havasının not yazısında həm 6/8-nın, həm də 3/4 ölçülərinin ardıcıl növbələşən ritmik quruluşlarını müşahidə etmək olar.




**Nota 3: Məhərrəmkənd rəqsi.**

2. Azərbaycanın göz oxşayan, çox mənzərəli təbiəti vardır. İstər coğrafi mövqeyi, iqlimi, istərsə də suyu, torpağı Vətənimizi təkrarolunmaz, əsrarəngiz bir diyara çevirmişdir. Bu cənnətin qapılarını üzümüzə açan gözəlliklərdən biri də təbiətin bizə bəxş etdiyi bitki, gül-çiçək aləmidir. Bu ürəkaçan gözəllikdən həzz alan xalqımız hər gülün, hər çiçəyin adına rəqslər yaratmışdır. "İnnabı", "Darçını", "Lalə", "Qızılgül", "Heyvagülü", "Bənövşə", "Novruzgülü", "Reyhanı", "Almagülü", "Alçagülü", "Mixəyi", "Məxməri", "Dağ çiçəyi", "Yasəməni", "Pambığı" bu rəqslərdəndir.

Azərbaycanda nəfəs alətlərinin məşhur ifaçılarından biri, zurna-balaban ifaçılığında özünəməxsus məktəb yaratmış ustad sənətkarlardan sayılan Əli Kərimov (1874-1962) Cabbar Qaryağdıoğlu ilə görüşlərindən birini belə xatırlayır: *"Biz Cabbarla Səlim bəyin toyunda görüşdük. Baharın gözəl çağı idi. Səhər-səhər Cabbarla çəmənlikdə gəzirdik. Bu gözəl bahar səhərinin təravəti, havadakı gül-çiçəyin ətri məndə elə bir təb yaratdı ki, istər-istəməz balabanı əlimə alıb çalmağa başladım. Musiqi sona çatdıqda Cabbar maraqlı baxışlarla bu rəqsin adını məndən soruşdu. Mən də dedim ki, bilmirəm, elə indi improvizə etdim. Onda Cabbar təklif etdi ki, bu melodiyanın adını elə bu səhərə, çiçəklərin ətrinə həsr edərək "Bənövşə" qoyaq. Beləcə "Bənövşə" rəqsi yarandı."* [4, s. 14]




**Nota 4: *Bənövşə* rəqsi.**

3. Qədim dövrlərdən bəri bahalı daş-qaşlar, eləcə də qiymətli materiallardan (qızıl və gümüş) hazırlanmış zinət əşyaları Azərbaycan xalqının məişətində çox geniş istifadə olunmuşdur. Əsasən, qadınların istifadə etdikləri bu bəzək əşyaları onların daha da yaraşıqlı, cazibəli görünməyinə təsir göstərmişdir. Feodal dövrünün saray xanımları aşağı təbəqədən olan xanımlardan seçilmək üçün çox qiymətli zinət əşyararından istifadə edərdilər. Üstü cürbəcür daş-qaşlarla (brilliant, almaz, yaqut, zümrüd, kəhrəba, firuzə) bəzədilmiş silsilələr, cıqqa və sırğalar, çəçik və qolbaqlar, sinəbəndlər, bilərzik və bazubəndlər, üzüklər, qızıl pullarla əhatə olunmuş papaqqabağılar, qızıl və gümüşdən

hazırlanmış kəmərlər belə bəzəklərdəndir. Qadın gözəlliyini və milli geyimlərimizin ornamentini əks etdirən bəzək əşyaları ilə bağlı xalq arasında bir çox rəqslər yaranmışdır. “Brilyantı”, “Yaqutu”, “Mirvari”, “Çervon”, “Almazı”, “Mərcanı”, “Onluq”, “Zümrüdü” və başqaları məhz, bu xalq rəqslərindəndir. Adlarını qeyd etdiyimiz oyun havalarından ikinci adı “Çatdadım” kimi tanınan “Mirvari” rəqsi, nəfəs alətləri ifaçılığında xüsusi yeri olan, zurna və balabanın virtuoz sənətkarı sayılan Həsrət Hüseynov (1927-1995) tərəfindən yaradılmışdır. O, bu rəqsi öz həyat yoldaşına həsr etmişdir. Çalındığı ilk gündən xalqın sevimli rəqs havasına çevrilən “Mirvari” toy şənliklərinin də bəzəyi sayılırdı. Əsasən, kişilərin oynadığı, iti tempə malik olan bu rəqsə verilən “Çatdadım” adının isə çox maraqlı tarixi vardır. 1984-cü ildə Həsrət Hüseynovun bizə söylədiyi əhvalatdan belə məlum olur ki, “çatdadım” sözü yorulmaq mənasında işlədilib. Əhvalat isə belədir ki, cavanlığından çox gözəl rəqs etməyi bacaran, lakin artıq yaşlı nəslin nümayəndələrindən sayılan kənd sakinlərindən biri hələ də toy şənliklərində “Mirvari” rəqsini tez tempdə yorulmadan oynayarmış. Çox cavanlar onu oynamaqla yormağa çalışmış, amma heç kəs bunu bacarmamışdı. Toy məclislərinin birində qocanı oyunda üstələməyə söz verən gənclərdən biri axırda o qədər yorulur ki, musiqini saxlatdırıb nəfəsi kəsilə-kəsilə; *“Adə, dayan da, mən çatdadım ki”* söyləyir. Hamının gülüşünə səbəb olan bu əhvalat uzun illər boyu xalqın hafizəsində yaşayaraq bu günə qədər gəlib çatmışdır. Heç təsadüfi deyil ki, bu gün Azərbaycanın bir çox bölgələrində toy şənliklərində əsasən, yaşlı nəslin insanları tərəfindən musiqiçilərə “Çatdadım” rəqsi sifariş edilir.




**Nota 5: Çatdadım rəqsi.**

4. Tarixdən bizə məlumdur ki, uzaq keçmişdə Azərbaycan ərazisində çoxlu sayda qədim tayfalar mövcud olmuşdur. “Oğuz”lar, “qıpçaq”lar, “qınıq”lar, “tərəkəmə”lər, “kuti”lər, “lullubi”lər, “qarqar”lar, “ovşar”lar, “köçəri”lər, “turukki”lər və başqaları belə

tayfalardandır. Bu tayfalar daim köçəri həyat tərzi sürmüş, heyvandarlıqla məşğul olmuş, öz yaşayışlarını təmin etmək üçün mal-qarasını yayda yaylağa, qışda qışlağa aparmaqla təsərrüfatlarını genişləndirmişlər. Bütün çətinliklərə, hər cür iqlim şəraitinə alışmış bu "elat" qəbilələri, tərəkəmələr istilər düşməmiş, yazın axırları uzaq yola çıxaraq dağlara köç edər, sürülərini yaylaqlara çıxarar, soyuqlar düşməmişdən də qabaq yenidən isti ərazilərə, "aran" bölgələrinə qayıdardılar. Xalq rəqslərimizdən "Tərəkəmə", "Köçəri", "Ovşarı" və başqaları məhz, bu qədim tayfaların adları ilə bağlı el havalarıdır.

Tərəkəmələrin həyat tərzini əks etdirən digər rəqslər daha maraqlı məzmuna malikdir. Kollektiv təsərrüfatla bağlı, süd sağımı, yun qırxımı, eləcə də qoyunçuluğun inkişafında çobanların əməyi bu rəqslərdə bütövlüklə öz əksini tapmışdır. "Kolxozu", "Xançobanı", "Çobanı", "Çobanlar", "Keçiməməsi" və s. oyun havaları məhz, əmək və təsərrüfatla bağlı məişət rəqslərindəndir. Adları çəkilən rəqslərdən özünün çox maraqlı süjet xətti və oyun üslubu ilə seçiləni "Xançobanı"dır. Tez tempə malik olan, kişilərin kollektiv şəkildə oynadığı bu rəqs teatrlaşdırılmış formada qurulmuşdur. Belə ki, oyun zamanı rəqqaslar səhnədə üc tamamilə müxtəlif xarakterli personaj nümayiş etdirirlər. Onlardan biri əyinlərinə dəri gödəkçələr geymiş və səhnədə əyilərək sanki qoyun sürüsünü təsvir edən, digəri sürüyə baxan çobanların personajlarıdır. Üçüncü obaraz isə çiynində yapıncısı, başında qoyun dərisindən papağı və əlində çomağı olan baş çobandır (xançoban). Rəqs nisbətən orta tempdə başlasa da xançobanın gəlişindən sonra ritm tədricən sürətlənir. Baş çoban yapıncısını kənara qoyaraq digər çobanlarla birlikdə, iti tempdə, mürəkkəb rəqs hərəkətlərini yerinə yetirərək öz məharətlərini göstərirlər.




**Nota 6: Xançoban rəqsi.**

5. Azərbaycan xalqı qəhrəman xalqdır. Uzun əsrlər boyu müharibələr görmüş, hücum və basqınlara məruz qalmış, tarixin bütün keçməkeçli yollarını aşaraq geridə qoymuş xalqımız heç zaman ruhdan düşməyərək düşmən basqınlarına mərdliklə sinə gərmiş, qəhrəmanlıq göstərmiş, gücünü, qüvvəsini səfərbər edib son nəticədə döyüşdən qalib çıxmışdır. Hər zaman Vətən yolunda canını qurban verməyə hazır olan, heç vaxt qorxu bilmədən düşmən qarşısında keçilməz sədd yaradan xalqımızın igid övladları döyüş meydanlarına atılarkən "cəngi"lər çalınar, aşıqlar sazı sinələrinə alıb xalqı qələbəyə səsləyərdilər. Bu səbəbdəndir ki, Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda canını qurban verən Cavanşir, Babək, Koroğlu, Nəbi kimi xalq qəhrəmanlarımız olmuşdur.

Düşmən üzərində çalınan hər bir qələbə, zəfər böyük xalq bayramlarına çevrilərdi. İgidlərimizin şəninə dastanlar qoşular, mahnılar bəstələnər, qələbə sevincini əks etdirən müxtəlif məzmunlu rəqs havaları yaradılardı. "Cəngi", "Beşaçılan", "Qəhrəmani" və s. məhz, belə rəqslərdəndir.




**Nota 7: Cütçü rəqsi.**

Cəngi – ümumi məna kəsb edən, "yallı" kimi qədim tarixə malik olan rəqs növüdür. Adının kökü, mənşəyi "cəng" sözündən götürülmüşdür. Cəng ərəbcə dava, müharibə, vuruş deməkdir. "Cəngi" xalqı qəhrəmanlığa çağıran, döyüşə səsləyən, şücayət göstərməyə sövq edən, insanlarda cəngavərlik əhval-ruhiyyəsi yaradan möhtəşəm bir musiqi nümunəsidir. Qədimdə Oğuz tayfaları arasında, orta əsrlərdə xanlıqlar arasında gedən müharibələrdə təbillər döyülər, zurna alətində çalınan "cəngi"lərin sədaları düşməni lərzəyə salar, döyüşün başlanmasını xəbər verərdi. Cəngilər yalnız hərbi yürüşlərdə deyil, pəhləvanların güləşmə səhnələrində, kəndirbazların çıxışlarında, cıdır yarışlarında da çalınır. Bu səbəbdəndir ki, Azərbaycanda çoxlu sayda "cəngi" rəqsləri mövcuddur. "Kəndiri", "Cütçü", "Atlanma" və başqaları belə oyun havalarındandır. Bu rəqslərdən ikinci adı "Zorxana" kimi tanınan, çox maraqlı tarixə malik olan "Cütçü" haqqında məlumat verməliyik. Zorxana – güc sinama yarışları üçün nəzərdə tutulmuş yer (məkan) adıdır. Bura

əsasən, öz gücünə inanan, özünü hər kəsdən qüvvətli sayan cavanlar, pəhləvanlar, idmançılar toplaşar, müxtəlif yarışlar, sinaqlar keçirərdilər. İştirakçılar cürbəcür ağır çəkili əşyaları (gürz, toppuz, qılınc, qalxan, əmud və s.) başları üzərinə qaldıraraq, müxtəlif fəndlər nümayiş etdirərək öz məharətlərini göstərərdilər. Belə "zorxana"lar XIX əsrdə Bakıda, Şəkidə və Şamaxıda çox geniç yayılmışdır. Şəkidə hal-hazırda "zorxana" binası bir tarixi abidə kimi qorunub saxlanılır. Qədim rəqslərimizdən sayılan "Zorxana"nın musiqisi Azərbaycan kino sənətinin incilərindən hesab edilən "Yeddi oğul istərəm" fimlində, kəndlilərin cüt qoşub yer şumladığı səhnədə səsləndikdən sonra, xalq arasında bu havanın digər bir adı – "Cütçü" meydana gəldi. Rəqsin musiqisində igidlik, qəhrəmanlıq, mərdlik xüsusiyyətləri özünü qabarıq şəkildə əks etdirir.

6. Azərbaycan xalqı qədim dövrlərdən bəri öz tarixi yaddaşına həkk elədiyi və özünün adət-ənənəsinə, məişətinə daxil etdiyi müəyyən hadisələri, unudulmaz günləri daim yaşatmaq üçün hər zaman müxtəlif bayramları, el şənliklərini və digər mərasimləri yüksək səviyyədə qeyd edir.

Bildiyimiz kimi Azərbaycanda bir çox bayramlar mövcuddur. Xalqımızın böyük təntənə ilə qeyd etdiyi bu bayramlardan biri də Novruz bayramıdır. Novruzda bayram şirniyyatlarının hazırlanması, səməni göyərdilməsi, yumurta boyadılması, xonçaların bəzədilməsi, çərşənbələrin keçirilməsi, tonqalların qurulması ilə yanaşı bu bayramı daha da yadda qalan edən xalq qarşısında bir çox oyunların, tamaşaların keçirilməsidir. Kəndirbazların çıxışları, zorxanaların qurulması, pəhləvanların yarışları, cıdıra çıxmaq, at yarışları, xoruz döyüşdürmək, ayı oynatmaq və bir çox başqa oyunlara xalq böyük maraqla və həvəslə tamaşa edir. Məhz Novruz bayramı ilə əlaqədar, onun atributları ilə bağlı, eləcə də buradakı oyunlara, tamaşalara aid xalq arasında bu günümüzə qədər çoxlu sayda rəqslər meydana gəlmişdir. "Səməni", "Novruzu", "Kəndiri", "Cıdır", "Atlanma", "Pəhləvanı", "Duy-duy", "Şalaxo" və s. belə rəqslərdəndir. Bu oyun havalarından "Şalaxo" daha maraqlı tarixə malikdir. Belə ki, Novruz bayramlarında, əsasən qaraçılardan ibarət ayı oynadanlar kəndlərə gedərdilər və bu bayramda öz öyrətdikləri ayıların məharətini xalq qarşısında nümayiş etdirərdilər. Onların gəlişini səbirsizliklə gözləyən böyükdən-kiçiyə, hər kəs dövrə ətrafında toplaşaraq oturuqlu və ya ayaq üstə bu tamaşaları seyr edərdilər. Burada ayı öz sahibinin əmrləri ilə iki pəncəsi üstə qalxaraq dövrə ətrafında gəzər, sonra başını yerə qoyub bir neçə dəfə tez-tez mayallaq aşar, musiqinin sədaları altında rəqs edərdi. Nəhayət, qaraçı ayının belinə şələ bağlayar və ayı bu şələni ayaq üstə qalxaraq belində daşıyardı. Bu səhnələrə tamaşa edənlər çox böyük həvəslə, əl çalaraq alqışlayıb yerlərdən tez-tez "Ay şələküm, məyəllaküm" sözlərinin deməklə aranı daha da qızışdırardılar. "Şələküm, məyəllaküm" burada "şələ daşıyan", "mayallaq aşan" mənasında işlədilmişdir. Deməli "Şalaxo" rəqsinin adının mənası ayının şələ daşımasından, yəni "şələ" sözündən götürülərək əvvəllər "Şələxo", daha sonralar isə "Şalaxo" kimi deyilmişdir.

"Şalaxo" rəqsi tez tempdə ifa olunan kişi rəqslərindəndir. Rəqsin musiqisi əvvəlcə orta (mülayim) tempdə başlayır. Burada ayaq burcutmaları, əllərin yumşaq-yumşaq öz ətrafına dairə şəkilli hərəkətləri kimi rəqs elementlərindən istifadə olunur. Sonra rəqsin sürəti get-gedə tezləşir. Bu zaman rəqs onu ifa edən rəqqasdan çox böyük ustalıq və məharət tələb edir. Belə ki, rəqs tullanma, iri sıçrayışlı ayaq hərəkətlərilə çox zəngindir. Peşəkar səhnədə "Şalaxo"nu ilk dəfə Azərbaycanın əməkdar artisti, baletmeyster, rəqqas Əlibaba Abdullayev (Əminə Dilbazinin dediklərindən) ifa etmişdir. "Şalaxo"nun not yazısından bir parçanı izləyək.




**Nota 8: Şalaxo rəqsi.**

Xalqımızın əsrlər boyu çox böyük şadyanalıqla qeyd etdiyi, ulu babalarımızın qoyduğu qanunlara əsasən, adət-ənənəmizə uyğun şəkildə həyata keçirdiyi mərasimlərdən biri də toydur. Toy – iki sevən gəncin yeni yaradacaqları müstəqil ailə təməlinin rəmzidir. Azərbaycan toylarında kicikdən böyüyə qədər hər kəs; qohumlar, qonşular, dost-tanışlar, ümumiyyətlə hamı şadlanır, rəqs edir, sevinir, bəylə-gəlini təbrik edir, onlara xoşdəxtlik arzulayırlar. Məhz, bu mərasimlə bağlı, bəylə-gəlinin şərəfinə xalq arasında bir çox oyun havaları meydana gəlmişdir. “Gəlin havası”, “Toy”, “Vağzalı”, “Yaylıq” və başqaları belə rəqslərdəndir. “Vağzalı” rəqsi haqqında Kamal Həsənov yazır ki; *“Vağzalı rəqsinin əsasını təşkil edən, əvvəllər “Qarabağın ağırı” adlanan qədim melodiya sonralar iki hissəyə şaxələnərək “Asta Qarabağı” və “Vağzalı” melodiyasına çevrilib”.* [1, s. 31]

Adlarını qeyd etdiyimiz oyun havalarından bu gün artıq üçüncü adı ilə yaşayan “Yaylıq” haqqında məlumat verməliyik. Keçmiş dövrlərdə “Tapança” adlanan bu rəqs sonralar “Yaylıq”, hal-hazırda isə “Qoçəli” kimi şöhrət tapmışdır. Əvvəla, deməliyik ki, bu rəqsi toy sahibinin məclisi idarə etmək üçün seçdiyi şəxs (tamada, masabəyi) oynayarmış. Toy məclisini idarə etmək çox böyük məsuliyyət tələb etdiyindən bu vəzifə elə adama həvalə olunurdu ki, böyükdən-kiçiyə, hamı ona hörmət etsin, onun sözündən çıxmasın. Çünki bəzi toylarda oynamaq üstündə mübahisələr düşərdi. Masabəyi dava düşəcəyini görüb silahla havaya güllə açardı, hamı sakitləşdikdən sonra şənlik davam edərdi. Rəqsə verilən “tapança” adı buradan götürülmüşdür. Zaman ötdükcə, bu adət nisbətən dəyişilmiş, masabəyinin əlindəki silah çubuqla əvəz olunmuşdur. O, səs-küy salanları çubuqla

hədələyər, məclisdən çıxarardı. Toyda digər insanlardan seçilsin deyə, masabəyinin qoluna qırmızı yaylıq bağlayardılar. Bu dəb indi də bir çox kənd toylarında davam etdirilir. Rəqsə "yaylıq" adının verilməsi də bu adətlə bağlı olmuşdur. "Qoçəli" adı isə rəqsə inqilabdan əvvəl Bakı kəndlərində verilmişdir ki, bu da "qoçu" ləqəbi ilə tanınan Əlinin adı ilə bağlıdır. Çox hörmətli və cəsarətli insan kimi tanınan qoçu Əlinin masabəyi olduğu toy məclislərində heç kim cürət edib dava salmazdı. Məclisdə kimlərə söz veriləcəyi, kimlərin ardıcıllıqla oynayacağı məhz, qoçunun icazəsi və göstərişi ilə yerinə yetirilirdi.
Ağır tempdə ifa edilən "Qoçəli" rəqsi öz musiqi məzmunu ilə, ritmik xüsusiyyətləri ilə çox sanballı və cazibəli oyun tərzi ilə seçilir.




**Nota 9: Qoçəli rəqsi.**

7. Azərbaycan oyun havaları arasında insan adları ilə bağlı rəqslər çoxluq təşkil edir. "Nabat xanım", "Xalabacı", "Şəlalə", "Mirzəyi", "Hacıcan", "Xanımı", "Züleyxa", "Sevinc", "Bəsti", "Qaryağdı", "Təhməzi", "Gülgəzi", "Leyli pəri", "Musaxanı", "Ayşadı" və s. Belə rəqslərin çox olması bir neçə səbəbdən yaranmışdır. Əvvəla qeyd etməliyik ki, rəqs havaları yüksək musiqi duyumu olan insanlar, oxumağı və ya hansısa bir musiqi alətində ifa etməyi bacaran musiqiçilər tərəfindən yaradılır. Bu yaradıcı insanlar kəşf etdikləri hər yeni musiqini nəyəsə həsr etmiş, kiməsə ithaf edərək ona ad vermişlər. Elə rəqslər də var ki, yarandıqdan sonra bir müddət adsız qalmışdır. Yəni, müəllif melodiyanı yaratmış, lakin ona dəqiq bir ad seçməmişdir. Belə rəqslərdən bəziləri tez-tez toylarda, el şənliklərində, bayramlarda səslənmiş, insanlar tərəfindən qəbul edilmiş, sevilmiş, lakin dəqiq adı olmadığı üçün xalq arasında bu rəqsə onu yaradan ifaçının öz adı verilmişdir. Məsələn, çox məşhur oyun havalarından sayılan "Mirzəyi" Qarabağlı ney ifaçısı Mirzə tərəfindən təxminən 1860-cı illərdə yaradılmışdır.
Bəzi rəqslər onu yaradan müəllifin oğlunun, qızının və ya nəvəsinin adını qəbul etmişdir. Məsələn, zurna və balabanın məşhur ifaçılarından sayılan Əli Kərimov (1874-1962) öz nəvəsinin adına həsr etdiyi "Əfruzə" rəqsini yaratmışdır. Bu gün "Ay qız heyranın ollam"

xalq mahnısı kimi məşhurlaşan “Gülgəzi” rəqsinin musiqisini Naxçıvanlı ney çalan Həsənəli 1904–1905-ci illərdə yaratmışdır. Gülgəz Həsənəlinin yoldaşının adıdır. Rəqs də onun şərəfinə “Gülgəzi” adlandırılıb. [1, s. 39]

Elə rəqslər də vardır ki, bir müddətdən sonra öz adını itirmiş, sonradan bu havanı gözəl oynayan, rəqs edən şəxsin (rəqqas və ya rəqqasənin) adı ilə adlandırılmışdır. Məsələn, bu gün iki hissəli rəqslərdən “Tamara” kimi tanınan oyun havası təxminən 1916-cı ildə yaranmışdır. Onun adı toylarda bu rəqsi çox məharətlə oynayan məşhur Salyanlı rəqqasə Tamaranın şərəfinə verilmişdir. Xalq arasında “Tamara” adı ilə məşhurlaşan rəqs öz əvvəlki adını itirmişdir.

Bu günümüzə qədər gəlib çatmış, insan adları ilə adlandırılan elə rəqs havalarına da rast gəlirik ki, həm ilkin adını, həm də sonrakı adını qoruyub saxlamışdır. Məsələn, “Balabəyi” rəqs havasının ikinci adı “Nilufəri”dir. İlk adı “Qorxmazı” olan rəqsə sonralar “Solmazı” adı da verilmişdir.

8. Təsnifatın sonuncu bölməsinə məzəli əhvalatlarla bağlı xalq rəqsləri daxildir. Bəşər tarixi mövcud olandan bəri hər bir insan yaşadığı həyatı boyu saysız-hesabsız gülməli, məzəli əhvalatlarla rastlaşmışdır. Sonra gördüyü bu əhvalatı öz yaxınlarına söyləməklə onların da qəlbində gülüş yaratmışlar. Getdikcə insanlar arasında yayilan belə gülməli əhvalatlar çoxaldıqca, onlardan ən maraqlısını, ən məzəlisini xalq öz yaddaşına köçürmüşdür. Bu məzəli əhvalatlar gələcəkdə bütün folklor janrlarına sirayət etdiyi kimi, oyun havalarının da yaranmasına səbəb olmuşdur. Bütün məzəli rəqslər hansısa gülməli bir tarixi əhvalatla bağlı olub, öz musiqi məzmununda və ya oynanılarkən müxtəlif çalarlar, müxtəlif hərəkətlər vasitəsilə bu gülüşü özündə əks etdirmişdir. Belə rəqslərdən “Kəsmə”, “Lətifə”, “Naz eləmə”, “Xurcun”, “Qıtqılıda”, “Naz-nazı”, “Kim-kimə”, “Tapp elədi” (“Sürüşdüm-düşdüm” kimi də adlanır), “Matanı”, “Cığ-cığa” və başqalarının adlarını çəkə bilərik.

İkinci adı “Sənəmi” kimi tanınan məşhur xalq rəqslərimizdən biri də “Qıtqılıda”dır. Süjetli rəqslərdən sayılan bu oyun havasında həm cavan, həm də yaşlı qadın obrazları təsvir olunur. Əsasən, qız toylarında cavan gəlinlər yığışıb birlikdə rəqs edirlər. Acıqlı və deyingən qaynanasından çəkinən utancaq gəlinlərdən biri oynayarkən qorxa-qorxa yan-yörəsinə baxır ki, birdən qaynanası gələr. Nəhayət qaynana gəlir və cavanların rəqsinə qoşulur. Gəlin dövrədəkilərin arasında gizlənir. Ağır tərpənən qaynana tez tempdə ifa edilən bu rəqsin ritminə düşə bilmir və yöndəmsiz, komik hərəkətlərlə oynayaraq insanlarda gülüş əhval-ruhiyyəsi yaradır. Rəqs “atlama” ritmində ifa edilir. Oyunda iştirak edən rəqqasələr dövrə ətrafında düzülürlər və tək-tək bu dövrənin mərkəzində oynayaraq öz bacarıqlarını göstərirlər. Dövrədə duranlar isə əl çalmaqla, çırtıq vurmaqla və digər ritmli küylərlə rəqsin ritmik müşayiətinə qoşulurlar.

Məzəli rəqslərə aid edilən, çox maraqlı süjet xəttinə, oyun üslubuna və ritmik xüsusiyyətlərinə malik olan oyun havalarımızdan biri də “Naz eləmə”dir. Sevgiyə həsr olunmuş, şən əhval-ruhiyyəli “Naz eləmə” oğlanla qızın birgə (duet) rəqsidir. Süjet xətti belədir ki, oğlan qıza aşiq olur, ürəyini ona açmaq üçün imkan gözləyir. Qız isə utanır, üzünü oğlandan gizlədir. Lakin oğlan imkan tapıb rübəndi qızın üzündən çəkib sevgisini ona bildirir. Rəqsdə obrazların xarakterinin açılmasında ritmin çox böyük əhəmiyyəti vardır. Belə ki, əvvəlcə orta tempdə ifa edilən rəqsdə, oğlan qıza ürəyini açdıqdan sonra əl-ələ verərək oynayarkən ritm də tezləşir, sürətli tempə keçir və elə bu templə də bitir.




**Nota 10: Naz eləmə rəqsi.**

Xalq rəqslərimizin bu günə kimi yazılmış bir neçə təsnifatı ilə tanışıq. Bu sahədə çalışan görkəmli musiqişünaslarımızdan Məmmədsaleh İsmayılovun, Bayram Hüseynlinin, Əhməd İsazadənin və başqalarının elmi əsərlərində, tədqiqat işlərində rəqslərin təsnifatı məsələlərinə də toxunulmuşdur. B.Hüseynlinin "Azərbaycan xalq rəqs musiqisinin klassifikasiyası" əsərində rəqs havaları öz mövzüsu baxımından altı növə bölünmüşdür; Ənənəvi rəqslər, Zəhmət rəqsləri, Məişət rəqsləri, Qəhrəmani rəqslər, Yallı oyun-rəqsləri və Müxtəlif müvzulu rəqslər. [2, s. 5] M.İsmayılovun "Azərbaycan xalq musiqisinin janrları" əsərində isə oyun havalarımız ritmik xüsusiyyətlərinə görə; Ağır-mülayim, Yüngül-oynaq, Qaytağı tipli cəld və İti rəqslərə bölünmüşdür. [3, s. 146]

Təqdim olunmuş məqalədə rəqslərin müxtəlif tərtibatda göstərilmiş əvvəlki təsnifatları da nəzərə alınmış, onların oxşar və fərqli cəhətləri müqayisəli şəkildə təhlil edilərək yeni səpgidə təşkil edilmişdir.

**KAYNAKLAR**


1. Həsənov K.N. Qədim Azərbaycan xalq rəqsləri. Bakı, İşıq, 1983, 59 s.
2. Hüseynli B.X. Azərbaycan xalq rəqs musiqisinin klassifikasiyası. Azərbaycan İncəsənəti məcmuəsi. XIIc. (Azərb. EA-nın nəşri) Bakı, 1968, 67 s.
3. İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları. Bakı, İşıq, 1960, 44 s.
4. Гусейнли Б.Х., Керимова Т.М. Али Керимов. М., СК., 1984, 48 с.